# Həsən Hami



**Həsən Hami (Hassan Hami) - Mərakeş Krallığının ölkəmizdəki sabiq səfiri, yazıçı və şairdir. Siyasi elmlər üzrə fəlsəfə doktorudur. Bir müddət universitetdə dosent və müstəqil jurnalist kimi çalışıb. 1997-2015-ci illər arasında ərəb dilində iki şeir divanı, fransız dilində altı, ingilis dilində iki romanı və iki hekayəsi işıq üzü görüb. Eyni zamanda, fransız dilində "Beynəlxalq münasibətlər nəzəriyyəsi"nə dair üç kitabın müəllifidir. Bəzi şeirləri və bir hekayəsi isə Azərbaycanda nəşr olunub.**

## VAXT

Vaxt heç bitib-tükənmir, sonsuzdur vaxt dənizi!
Biz vaxtı öldürmürük, odur öldürən bizi!
"Vaxtı vaxta buraxsaq", həlak olarıq o an!
Sonsuzluq zirvəsilə aramızda var zaman.

Vaxtla döyüşmək üçün hər gün yeni bir kəşflə
Öyünür, fəxr edirik!
Biz ordu toplayırıq, qala qururuq qumdan -
Hücuma keçmək üçün, qorunmağa hücumdan!

Bəs, qələbə sevinci? Gəlin, düşünək bir az! -
Bu mənasız döyüşdə qələbə çalmaq olmaz!
Öyünməyək uşaq tək, xəyaldan qurmayaq taxt -
Onsuz da o keçidi keçə bimərik heç vaxt!..

## YUN KÖYNƏK

Səfər üçün çantamı
Hazırlayırdım dünən,
Yun bir köynək cəlb etdi
Nəzərlərimi birdən

Gülümsədim...
Çoxdandır onunla tanışıq biz!
Gör, nə qədər səfərdə olubdur mənə yoldaş!
Səbr edib hər halımda, dözüb səssiz-səmirsiz

Bircə gün olsa belə,
Diksinmədi tərimdən
Elə sarıldı mənə,
Seçilmədi dərimdən!..
Nə təhlükəyə atdı,
Nə də qoydu yuxusuz.

Ünvanını soruşsan,
Özüməm ona ünvan!
Gücünü məndən alıb,
Olsa da rəngi əlvan.

Ondan soruşsan əgər, ən gözəl ölçü nədir?
O, məni verər nişan, mənəm onun ölçüsü!
Məndən onu soruşsan, cavabım, bax, belədir:
"Bu fədakar, bu zərif və mənə çox yaraşan
Köynəyimin qoynunda mənəm ən xoşbəxt insan!"

## ƏN GÖZƏL SƏFƏR

İki xətdir ölüm - həyat!
Yan-yanadır iki təzad!

Ömür boyu qaçırıq, zamanla yarışırıq -
Və yarışın sonunda
Bir kəfənə bürünüb onunla barışırıq...

Yolların ayrıcında
Öndə gedənindir haqq -
İstisnasız olaraq!
O ani istisnalar, ən gözəl xatirələr
Yoxluqla bağladığın əsl sazişə bənzər;
Bağlayırıq, birləşir iki xətt, gedir qoşa,
Xəbərimiz olmadan!
Qocalıq zirvəsində, gəlib dolanda yaşa

Qəm-kədərin sonu yox! Nə vaxtsa geri dönər,
Nə yanacaq arayar, nə təyyarəyə minər!..

Sevinc istisna kimi ortaya çıxsa əgər,
Sanki, bir qış günündə qəfil çaxan, yandıran
İldırımlardan qorxar, uğursuzluqdan ürkər

Və bu iki, qoşa xətt həmişə yan-yanadır,
Bir-birini cəzb edir, bir-birinə can atır.
Ölüm - həyat sahili! Sahillər arasında
Toxum dənələrinə bizim bənzərimiz var -
Hər gün, gündə min kərə
Rüzgar bizimlə oynar
Ömür boyu yol gedirik, üzülürük, sevinirik,
Ölüm də öz işində, həyat da gərdişində
Nə qədər qazansaq da, uduzsaq da beləcə,
Yollar nə qədər olsa rahat, təhlükəsiz də,
Qorxarıq, amma yola davam edərik biz də!..

## QAPI

Evimdə bir qapı var, qorxuram, keçəm ordan
Yox! Qorxaq deyiləm mən! - Məsumluğum yox olar
Ordan keçsəm, qorxuram
Qorxuram bir zəiflik bürüyər məni birdən
O şeylər ki, onları yaxşı olar, bilməsəm
Mənə dəxli olmayan şeylərdi bəlkə onlar!..
Bax, mənimlə onların arasında keçid var!
O məsafə, o keçid, ah, nə qədər də mahir! -
Necə cəlbedicidir, məni özünə çəkir!..

## SƏFƏR

Bir gün çıxsam səfərə və qayıtmasam geri,
Mənimçün ağlamağa hələ tələsməyin siz! -
Bəlkə, göz yaşınıza heç layiq deyiləm mən!..
Əvvəlcədən ağlayıb yas tutmaq günah olar -
Minalanmış sahədə gəzməyə bənzəri var!..

Bir gün çıxsam səfərə və qayıtmasam geri,
Göylərə ucalmasın qəlbin naləsi, ahı!.. -
Məndən sonra da həyat davam eləyir, axı!..
Dönüşümü qənimət bilərək gözləməyin! -
Vədlər - mənim nəfəsim! - Vədlərə güvənməyin!

Bir gün çıxsam səfərə və qayıtmasam geri,
Arxamca qarışmasın səsiniz bir-birinə!..
Bəlkə, pıçıldayaraq olar bir xəbər verən
Bir sonun həvəsindən, vüsal sərhədlərindən

Bir gün çıxsam səfərə və qayıtmasam geri,
Unudun, yad etməyin, xatırlamayın məni!..
Gör, neçəsi mənim tək sizləri elədi tərk,
Amma nə arzu-kama, nə də öz istəyinə
Hələ indiyə qədər qovuşmadı, edin dərk!..
Siz dənizdən soruşun, neçəsini uddu o!..
Baxmadan dalğaların fəryadına, ahına,
Yenə də əl çəkmədi dəniz öz əməlindən!..

Bir gün çıxsam səfərə və qayıtmasam geri,
Məndən əvvəl tərk edib gedənlərdən soruşun
Göylərin xəyalını!
Yetişə bilmədilər ilk yüksəkliyə belə!..

Bir gün çıxsam səfərə və qayıtmasam geri,
Qurusa göz yaşınız, mənim günahım deyil! -
Mənə yas tutmağı da istəmədim ki sizdən...
Kahinlik etsəniz də, görməzsiniz siz məni! -
Bilmək olmaz sədəfin içində gizlənəni !..

## O OLMASAYDI...

Mənə sərhədlər aşan bir nəğmədən söz aç sən!
Odur bütün dillərdə həm sevilən, həm sevən! -
Anam!..

Elə bir şeir yazam, qartallar edə qibtə!
Bəhirlər ona aşiq, qafiyələr keşikdə! -
Anam!..

Bəzə həyat lövhəmi, işarətlərlə boya!
Qaranlıqda nurunla işıq saç bu tabloya,
Anam!..

Qına, doğum günümü belə xatırlamadım!..
Qına, amma dayaq ol, göz qoy sən addım-addım,
Anam!..

Hansı səmtə üz tutum, öyrət, necə tor atım? -
Axı, eşq dənizində çarpışmaqda həyatım,
Anam!..

İnamımı qəm-kədər didir, parça-parçadır!..
Bəs, ağlım haradadır? Dəliliyim hardadır?
Əgər anam olmasa!..

O olmasaydı əgər, qürur atına minər,
Qopardım köklərimdən, əslimi itirərdim
Anam! Anam!..

## HÜZUR

Hüzur!..
Dənizi seyr edərsən çəkmədən gözlərini,
Dalmazsan dərinliyə, özünə çəkər səni
Maviliyi dənizin
Bir anlıq sən silərsən üfüqdəki izləri,
Xatirələr yox olar! - Bu nə gözəl bir nemət!..
Keçmişin həsrətini çəkmək olar fəlakət!..

Hüzur!..
Sənə ən yaxın kəsin gözlərinə baxanda,
O ən yaxın insanın gözlərində o anda
Görərsən bir əzəmət, bir cəsarət, bir vüqar!
Qəm-qüssən yetər sona, rahatlıq gələr cana!..

Hüzur!..
Fəza qucaq açar sənin kölgənə,
Sən onun qoynunda üzdüyün zaman!..
Bütün səslər susar, susar bir anlıq
Fəzanın qoynunda sən səslənən an!..

Hüzur!..
Lüzumsuz dəhlizlərdən keçib getdiyin zaman,
Saymazyana keçərkən, dəyər vermədiyin an,
Sanki, baş verənlərin lap ortasında sənsən,
Sənsən ən dəyərlisi - diqqət mərkəzindəsən!

Hüzur!..
Yoxluq zəfər çalan an,
Xəyal yol göstərmədən,
İzlər yox olub gedər,
Bütün qırışlar itər,
Quruyar damarda qan!..

Hüzur!..
Bütün maneələri
Şövqlər aşıb keçən an,
Keçidlər də söz açar
Keşməkeşli yollardan
Köçəri quşlar kimi
Uzun yollardan keçər,
Qızmar günəşi seçər!
Sonra ordan ayrılar,
Qanadlarını yığar -
Qorxar, günəşin odu
Onu yandırıb-yaxar

Hüzur!..
Gözlərin dərk edəndə, dəniz bir gün də belə
Onun parlaqlığını almadı əllərindən!..
Onlar qadağa qoyan! Onlardır əmr verən!
Bütün rənglər gözəldir, dairə olsa tamam!
Bəs dərinliklər? -
Onlar söz açar yorğunluqdan!..

**Ərəb dilindən tərcümə edən:**
**Mahir Həmidov**